# "Standartlaşdırma, metrologiya və sertifikatlaşdırma sahəsində razılaşdırılmış siyasətin aparılması barədə" 1992-ci il 13 mart tarixli Sazişə əlavə və dəyişikliklərin edilməsi haqqında" Protokolun təsdiq edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi **qərara alır:**

I. "Standartlaşdırma, metrologiya və sertifikatlaşdırma sahəsində razılaşdırılmış siyasətin aparılması barədə" 1992-ci il 13 mart tarixli Sazişə əlavə və dəyişikliklərin edilməsi haqqında" 2000-ci il iyunun 20-də Moskva şəhərində imzalanmış Protokol Azərbaycan Respublikasının həmin Protokola dair xüsusi rəyi ilə (xüsusi rəyin mətni əlavə olunur) **təsdiq edilsin.**

II. Bu Qanun dərc edildiyi gündən qüvvəyə minir.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 1 oktyabr 2007-ci il
№ 395-IIIQ

## Standartlaşdırma, metrologiya və sertifikatlaşdırma sahəsində razılaşdırılmış siyasətin aparılması barədə 1992-ci il 13 mart tarixli Sazişə əlavə və dəyişikliklərin edilməsi haqqında

## PROTOKOL

Standartlaşdırma, metrologiya və sertifikatlaşdırma sahəsində razılaşdırılmış siyasətin aparılması barədə 1992-ci il 13 mart tarixli Sazişin iştirakçısı olan dövlətlərin hökumətləri,

sertifikatlaşdırma üzrə orqanların, sınaq və ölçmə laboratoriyalarının akkreditasiyası sahəsində razılaşdırılmış siyasətin aparılmasının zəruriliyini etiraf edərək, həmçinin

- azad ticarət zonasının yaradılması zamanı Birliyin iştirakçısı olan dövlətlərin ticarət-iqtisadi, elmi-texniki əməkdaşlığında texniki maneələrin aradan qaldırılmasına yardım edəcək ümumi normativ texniki və metroloji təminatın qorunması və gələcək inkişafı üçün şəraitin yaradılması,
- Standartlaşdırma, metrologiya və sertifikatlaşdırma üzrə Dövlətlərarası Şuranın Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsi ilə qarşılıqlı fəaliyyətinin təmin edilməsi,
- Dövlət Başçıları Şurasının MDB orqanlarının strukturunun təkmilləşdirilməsi və dəyişdirilməsi haqqında 1999-cu il 2 aprel tarixli Qərarının həyata keçirilməsi məqsədilə,

aşağıdakılar barədə razılığa gəldilər:

1. Standartlaşdırma metrologiya və sertifikatlaşdırma sahəsində razılaşdırılmış siyasətin aparılması barədə 1992-ci il 13 mart tarixli Sazişə (bundan sonra - Saziş) aşağıdakı dəyişikliklər və əlavələr edilsin:

1.1. Sazişin bütün mətnində "standartlaşdırma, metrologiya və sertifikatlaşdırma" sözləri "standartlaşdırma, metrologiya, sertifikatlaşdırma və bu fəaliyyət sahələrində akkreditasiya" sözləri ilə əvəz edilsin.

1.2. Standartlaşdırma, metrologiya və sertifikatlaşdırma üzrə Dövlətlərarası Şura haqqında Əsasnamə yeni redaksiyada verilsin (əlavə olunur).

2. Standartlaşdırma, metrologiya və sertifikatlaşdırma sahəsində razılaşdırılmış siyasətin aparılması barədə Sazişə dair 1995-ci il 3 noyabr tarixli Protokol qüvvədən düşmüş hesab edilsin.

3. Bu Protokol imzalandığı gündən, qanunvericiliyi Protokolun qüvvəyə minməsi üçün dövlətdaxili prosedurların yerinə yetirilməsini tələb edən dövlətlər üçün isə qeyd olunan prosedurların yerinə yetirilməsi barədə xəbərdarlığın depozitariyə saxlanılmağa verildiyi

gündən qüvvəyə minir. Bu Protokolun imzalandığı gündən üç ay ərzində Dövlətlər bu prosedurların yerinə yetirilməsinin zəruriliyi haqqında depozitarini məlumatlandırırlar.

4. Bu Protokolun tətbiqi və təfsirinə aid mübahisəli məsələlər məsləhətləşmələr və danışıqlar yolu ilə həll edilir.

Moskva şəhərində 2000-ci il iyunun 20-də bir əsl nüsxədə olmaqla rus dilində imzalanmışdır. Əsl nüsxə Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsində saxlanılır. İcraiyyə Komitəsi onun təsdiq olunmuş surətlərini bu Protokolu imzalamış hər bir ölkəyə göndərəcəkdir.

**Azərbaycan Respublikasının**
**Hökuməti adından**
**A. ABBASOV**

**Ermənistan Respublikasının**
**Hökuməti adından**
**A. MARQARYAN**

**Belarus Respublikasının**
**Hökuməti adından**
**V. YERMOŞİN**

**Gürcüstan**
**Hökuməti adından**
**Q. ARSENİŞVİLİ**

**Qazaxıstan Respublikasının**
**Hökuməti adından**
**K. TOKAREV**

**Qırğızıstan Respublikasının**
**Hökuməti adından**
**A. MURALİYEV**

**Moldova Respublikasının**
**Hökuməti adından**
**D. BRAGİŞ**

**Rusiya Federasiyasının**
**Hökuməti adından**
**M. KASYANOV**

**Tacikistan Respublikasının**
**Hökuməti adından**
**A. AKİLOV**

**Özbəkistan Respublikasının**
**Hökuməti adından**
**B. HƏMİDOV**

**Ukrayna Hökuməti**
**adından**
**V. YUŞŞENKO**

Standartlaşdırma, metrologiya və sertifikatlaşdırma
sahəsində razılaşdırılmış siyasətin aparılması barədə
1992-ci il 13 mart tarixli Sazişə əlavə və
dəyişikliklərin edilməsi haqqında
2000-ci il 20 iyun tarixli Protokola
ƏLAVƏ

**Standartlaşdırma, metrologiya və sertifikatlaşdırma üzrə Dövlətlərarası Şura haqqında**

**ƏSASNAMƏ**

## 1. ÜMUMİ MÜDDƏALAR

Standartlaşdırma, metrologiya və sertifikatlaşdırma üzrə Dövlətlərarası Şura (bundan sonra - Şura) standartlaşdırma, metrologiya, sertifikatlaşdırma və bu fəaliyyət sahələrində akkreditasiya üzrə əlaqələndirməni həyata keçirir, razılaşdırılmış siyasətin aparılması barədə qərarlar hazırlayır və qəbul edir.

Şura Standartlaşdırma, metrologiya və sertifikatlaşdırma sahəsində razılaşdırılmış siyasətin aparılması barədə 1992-ci il 13 mart tarixli Sazişin (bundan sonra - Saziş) iştirakçı dövlətlərinin səlahiyyətli nümayəndələrindən ibarətdir.

Şura dövlətlərarası standartlaşdırma, metrologiya, sertifikatlaşdırma və bu fəaliyyət sahələrində akkreditasiya üzrə Şuranın işlərinin yerinə yetirilməsi və Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsi üçün materialların hazırlanması məqsədilə Standartlar üzrə Büro yaradır.

Standartlar üzrə Büro Minsk şəhərində yerləşir.

Şuranın və onun işçi orqanının rəsmi dili rus dilidir.

## 2. ŞURANIN FUNKSİYALARI

Şura aşağıdakı əsas funksiyaları yerinə yetirir:

standartlaşdırma, metrologiya, sertifikatlaşdırma və akkreditasiya sahəsində dövlətlərarası əməkdaşlıq üzrə birgə fəaliyyətin prioritet istiqamətləri və formalarının hazırlanması və razılaşdırılması;

elmi tədqiqatların, elmi-texniki proqramların, plan və layihələrin əsas istiqamətlərinin baxılması və qəbul edilməsi;

Sazişlə nəzərdə tutulan Şuraya təhkim edilmiş sahələr üzrə sənədlərin iştirakçı dövlətlərin hökumətlərinin təsdiqinə təqdim edilməsi, səlahiyyətləri olduqda isə onların təsdiq edilməsi;

dövlətlərarası standartlar barədə qərarların qəbul edilməsi, standartlaşdırma, metrologiya, sertifikatlaşdırma və bu fəaliyyət sahələrində akkreditasiya üzrə birgə işlərin aparılması qaydaları və prosedurlarının hazırlanması və qəbul edilməsi;

Şuraya təhkim edilmiş fəaliyyət sahələri üzrə MDB-nin İqtisadi Şurası yanında İqtisadi Məsələlər üzrə Komissiyanın, Müstəqil Dövlətlər Birliyinin İqtisadi Şurasının və Birliyin digər dövlətlərarası (hökumətlərarası) orqanlarının iclaslarına materialların hazırlanması;

standartlaşdırma, metrologiya, sertifikatlaşdırma və bu fəaliyyət sahələrində akkreditasiya üzrə məqsədli proqram və texniki layihələrin yerinə yetirilməsi üçün xərclər smetalarının nəzərdən keçirilməsi və razılaşdırılması, onların maliyyə mənbələri üzrə təkliflərin hazırlanması;

Şura nəzdində elmi-texniki komissiyaların və texniki komitələrin yaradılması barədə qərarların qəbul edilməsi, onların iş planlarının və xərclər smetasının təsdiqi;

Şuraya təhkim edilmiş fəaliyyət sahələri üzrə beynəlxalq təşkilatlarla əməkdaşlığın

həyata keçirilməsi.

Dövlətlərarası standartlaşdırma, metrologiya, sertifikatlaşdırma və akkreditasiya sahəsində işlərin və qarşılıqlı informasiya fəaliyyətinin səmərəliliyinin artırılmasına yardım göstərən, habelə standartlaşdırma, metrologiya, sertifikatlaşdırma və bu fəaliyyət sahələrində akkreditasiya üzrə beynəlxalq və regional təşkilatlarla əməkdaşlığı təmin edən dövlətlərarası təşkilati, hüquqi, elmi-texniki və digər tədbirlərin hazırlanması və həyata keçirilməsi məqsədilə Şura Birliyin səlahiyyətli orqanlarına qəbul edilmiş normalara uyğun olaraq özümaliyyələşdirmə əsasında fəaliyyət göstərən qeyri-kommersiya təşkilatlarının (fəaliyyət məqsədi mənfəət əldə etmək olmayan büdcədənkənar maliyyələşən təşkilatlar) yaradılması barədə təkliflər verə bilər.

Şura ona təhkim edilmiş fəaliyyət sahələri üzrə Sazişin iştirakçı dövlətlərinin hökumətləri ilə razılaşdırılmış, əlavə səlahiyyətlərlə müəyyən edilmiş digər funksiyaları da həyata keçirə bilər.

## 3. ŞURADA DÖVLƏTLƏRİN NÜMAYƏNDƏLİKLƏRİ

Sazişin iştirakçı dövlətlərinin standartlaşdırma, metrologiya və sertifikatlaşdırma üzrə milli orqanlarının rəhbərləri həmin dövlətlərin Şurada nümayəndələridir ki, onlara da dövlətlər adından Şuraya üzv olmaq hüququ və bu Şuranın üzərinə qoyulmuş funksiyaların yerinə yetirilməsi üçün lazımi səlahiyyətlər verilir.

Şuranın üzvləri:

Şuranın bütün fəaliyyət növlərində həlledici səs hüququ ilə iştirak edirlər;

Şurada standartlaşdırma, metrologiya, sertifikatlaşdırma və bu fəaliyyət sahələrində akkreditasiya üzrə dövlətlərarası əməkdaşlığın müxtəlif məsələlərinin müzakirəsini təşkil edirlər;

göstərilən fəaliyyət növlərində dövlətlərarası əməkdaşlığın konkret məsələləri üzrə öz dövlətlərinin mövqeyi barədə Şuraya məlumat verirlər;

milli orqanların fəaliyyəti barədə informasiya mübadiləsi aparır və standartlaşdırma, metrologiya, sertifikatlaşdırma və bu fəaliyyət sahələrində akkreditasiya üzrə dövlətlərarası və beynəlxalq əməkdaşlığın konkret formalarında öz dövlətinin iştirakı ilə bağlı digər üzvlərlə danışıqlar aparırlar;

sistematik olaraq Şuranın iclaslarının stenoqramlarının, Şuranın elmi-texniki komissiyalarının və Standartlar üzrə Büronun cari fəaliyyəti barədə, həmçinin əməkdaşlığın konkret istiqamətləri üzrə informasiya alırlar;

sorğu ilə Şuraya və onun Standartlar üzrə Bürosuna standartlaşdırma, metrologiya, sertifikatlaşdırma üzrə milli orqanların fəaliyyəti barədə dövlətlərarası maraq kəsb edən konkret məsələlər üzrə lazımi informasiyanı təqdim edirlər.

## 4. ŞURANIN İŞİNİN TƏŞKİLİ

Standartlaşdırma, metrologiya, sertifikatlaşdırma və bu fəaliyyət sahələrində akkreditasiya üzrə Şuranın qəbul etdiyi qərarlar Sazişin iştirakçı dövlətlərində milli qanunvericiliklərə müvafiq olaraq tətbiq edilir.

Şura öz iclaslarını zərurət olduqda, lakin yarım ildə bir dəfədən az olmamaqla keçirir. İclaslarda Şuranın üzvlərindən başqa digər dövlət nümayəndələri, Sazişin iştirakçı dövlətlərinin aparıcı sənaye sahələrinin həlledici səs hüququ olmayan nümayəndələri də iştirak edə bilər. İclaslarda dövlətlərin nümayəndə heyətlərinin tərkibinə lazımi sayda məsləhətçi və ekspertlər daxil edilə bilər.

Şuranın iclaslarında Müstəqil Dövlət Birliyi İcraiyyə Komitəsinin nümayəndəsi məşvərətçi səs hüququ ilə iştirak edir.

Şurada sədrlik növbə ilə Birliyin iştirakçı dövlətləri tərəfindən, onun nümayəndəsi qismində rotasiya prinsipi əsasında bir ildən çox olmayan müddətə həyata keçirilir. Sədr iclaslara rəhbərlik edir və iclaslararası müddətdə onun işini təşkil edir.

İclasların gündəlikləri Şura üzvlərinin səs çoxluğu ilə təsdiq olunur.

Konkret dövlətlərarası proqramlar, texniki layihələr və əməkdaşlıq formaları üzrə qərarlar Şura üzvləri tərəfindən konsensus əsasında qəbul edilir.

İstənilən iştirakçı dövlətlərdən birinin maraqlarına toxunan qərarlar onu təmsil edən Şura üzvü olmadıqda qəbul edilə bilməz.

Prosedur məsələləri üzrə qərar səs çoxluğu ilə qəbul edilir.

Şuranın sədri:

standartlaşdırma, metrologiya və sertifikatlaşdırma üzrə milli orqanlarla razılaşdırmaqla sənaye, kənd təsərrüfatı və iqtisadiyyatın digər sahələrinin inkişafı üzrə çoxtərəfli razılaşma çərçivəsində birgə proqram layihələrinin hazırlanmasında iştirak etmək üçün Birliyin iştirakçı dövlətlərinin mütəxəssislərini cəlb edir;

Müstəqil Dövlətlər Birliyinin İqtisadi Şurası yanında İqtisadi Məsələlər üzrə Komissiyanın işində məşvərətçi səs hüququ ilə iştirak edir.

Şura Sədrinin tapşırığı ilə Müstəqil Dövlətlər Birliyinin İqtisadi Şurası yanında İqtisadi Məsələlər üzrə Komissiyanın, Müstəqil Dövlətlər Birliyi İqtisadi Şurasının, Müstəqil Dövlətlər Birliyi İcraiyyə Komitəsinin, standartlaşdırma, metrologiya, sertifikatlaşdırma və bu fəaliyyət sahələrində akkreditasiya məsələləri üzrə digər dövlətlərarası orqanların işində Şuranın digər üzvü iştirak edə bilər.

İclaslararası fasilələrdə Şura üzvləri öz dövlətlərində Şuranın qəbul etdiyi qərarların həyata keçirilməsi üzrə işi təşkil edir, Müstəqil Dövlətlər Birliyinin İcraiyyə Komitəsi ilə, Şura tərəfindən və öz aralarında yaradılmış təşkilatlarla əlaqələr saxlayır.

## 5. STANDARTLAR ÜZRƏ BÜRO

Standartlar üzrə Büro Şura tərəfindən yaradılır və Şuranın fəaliyyətinin əsas istiqamətləri üzrə daimi işləyən mütəxəssislərdən ibarətdir. Məsləhətçi-təşkilatçıların say tərkibi Şura tərəfindən müəyyən edilir.

Standartlar üzrə Büro öz fəaliyyətində Şura haqqında bu Əsasnaməni, standartlaşdırma, metrologiya, sertifikatlaşdırma və bu fəaliyyət sahələrində akkreditasiya sahəsində razılaşdırılmış siyasətin aparılması məsələləri üzrə qəbul edilmiş dövlətlərarası Sazişi və digər sənədləri, Şura tərəfindən təsdiq olunmuş Standartlar üzrə Büro haqqında Əsasnaməni rəhbər tutur.

Standartlar üzrə Büro öz fəaliyyətini həyata keçirmək üçün yerləşdiyi ölkənin qanunvericiliyinə müvafiq olaraq özünün hüquqi şəxs statusunu sənədləşdirir. O, üzərində adı əks olunmuş möhürə və bank hesabına malikdir.

Standartlar üzrə Büro lazımi yerlə təmin olunur. Şuraya xidmət göstərmək üçün təşkilati texnika, rabitə, nəqliyyatla və onun normal fəaliyyəti üçün lazım olan digər atributlarla təchiz edilir.

Standartlar üzrə Büronun Şuranın işinin təşkili və aparatın saxlanması ilə bağlı xərclərinin maliyyələşdirilməsi Sazişin iştirakçısı olan dövlətlərin standartlaşdırma, metrologiya, sertifikatlaşdırma üzrə milli orqanlarının büdcədənkənar mənbələrdən köçürülmüş illik ödənişləri, həmçinin məsləhət - informasiya və metodiki - təşkilati fəaliyyəti nəticəsində daxil olmuş vəsaitlər və təsərrüfat subyektləri tərəfindən dövlətlərarası standartlaşdırma üzrə işlərin ödənişi və digər mənbələrin hesabına həyata keçirilir.

**Standartlaşdırma, metrologiya, sertifikatlaşdırma sahəsində razılaşdırılmış siyasətin aparılması barədə Sazişə əlavə və dəyişikliklərin edilməsi haqqında 2000-ci il 20 iyun tarixli Protokola Azərbaycan Respublikasının**

**XÜSUSİ RƏYİ**

Şura haqqında Əsasnamənin 2-ci bölməsinin səkkizinci abzasının "texniki komitələr" ifadəsi, habelə Şuranın beynəlxalq hüquq subyektliyini, onun yeni strukturlar yaratmasını və Sazişin iştirakçı dövlətlərdə Şuranın qərarlarının tətbiq edilməsini nəzərdə tutan həmin bölmənin doqquzuncu və onuncu abzasları və 4-cü bölmənin birinci abzası istisna olmaqla.

**Azərbaycan Respublikası Baş nazirinin birinci müavini A. ABBASOV**